

*Səyyarə MƏMMƏDLİ*

## ADSIZ ŞEİR

Bu, mən oldum, quş səsinə oyanıb
Top səsində dərin yuxuya dalan.
Bir nəhəngin zərbəsinə dayanıb,
Bir cılızın çırtmasıyla yıxılan.

Bu, mən oldum, vətənində vətənsiz,
Azadlıqda məhkum kimi yaşayan.
Bir bədəndə neçə yerə bölünüb,
Hər əzası bir sərhədi daşıyan.

Bir qınaq daşıyır hər kəs özüylə,
Qınaqsız barmaqla sayılır yenə.
Məni  yubatmasın heç kəs sözüylə,
Gedirəm “Yurd” adlı  xəyala yenə.

## KAŞ, DÖNÜB QUŞ OLAYDIM

Kaş dönüb quş olaydım,
Bezdim adam olmaqdan!
Quş əvəzi qəfəsdə
"Adam" olub qalmaqdan!

Kaş dönüb quş olaydım,
Çətindi adam olmaq!
Öz əsil mənliyində,
Əsil simanda qalmaq!

Quş olub səmalarda
Süzəm belədən-belə!

Əsir torpaqlarımı
Gəzəm belədən-belə!

Bataqlığına batsam
Çör-çöpüylə qorunam!
Göllərində yuyunub,
Daşlarında qurunam!

Çatıb Göyçə elinə
Qanad verib görüşəm!
Deyəm:"Adamtək getdim,
Quştək gəldim görüşə!"

Dimdiyimlə daşıyıb
Oduna su çiləyim!
Onu qurtarmaq üçün
Ovsunlana lələyim!

Adamtək yaramadım,
Kaş bunlara varaydım!
Qalan insan ömrümü
Quştək başa vuraydım!

* * *

Dünənədək
avtobusda, metroda
özümdən böyüklərə
mən durub yer verərdim.
İndi... mənə verirlər.
Özümü dünənə
yaxın "görsəm" də,
yer verənlər görünür
məni mənim özümdən
daha yaxşı "görürlər".

## CAVABSIZ SUAL

Nədən olur, dünyanın
Sevinci az, qəmi çox.
Onsuz da bu həyatda
Bu gün varıq, sabah yox.

* * *

Hər kəsin dilində səslənən sözdü,
Baxır, deyilən nə haqdadı - "qismət".
Hər ağır itginin, düzəlməz işin
Sonunda qoyulan nöqtədi –"qismət".

* * *

Qayğılar bir dənizdi,
Mən də bir yarımada.
Yaşayıram bu ömrü,
“Üç”üm su, “bir”im ada.

* * *

Hamıdan geridi, bilmədi bunu,
“Məndən yoxdur” deyib, özün öyənlər.
Özünü müəllim sanır çox zaman
Sənin bildiyini sənə deyənlər.

* * *

Adam  təkcə əcəllə ölmür ki,
adamlar!
Əcəlinə doğru
ölə-ölə gedir.
Bir az o çalır ömründən,
bir az bu çalır...
Sonuncu ölümdə
ölüm mələyinə yalnız
quruca nəfəsi almaq qalır.

* * *

Sonu bir olsa da getdiyi yolun,
Fərqli yazı, taleyi var hərənin.
Görən, o dünyada yeri haradır
Cəhənnəmi bu dünyada görənin!?

* * *

Sözün bitdiyi yerdən
Çox uzaq  yerdi dünya!
Sadəcə  qafiyəsiz,
Sərbəst şeirdi – dünya.

* * *

Torpağımtək para-parayam mən də,
Həm Cənubam, həm də Qərb - bir bədəndə.
Hər əzam sərhəddi biri-birinə,
Həm doğmayam, həm qərib - bir bədəndə.